UOT 373.3/5.

***Nərgiz Hüseynağa qızı Qədirova,***
*fəlsəfə doktoru proqramı üzrə sabiq doktorant*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*

# MÜƏLLİM MENTALİTETİNİN FORMALAŞDIRILMASI: MÖVCUD ƏDƏBİYYATIN TƏHLİLİ

***Наргиз Гусеинага гызы Гадырова***
*бывший докторант по программе доктора философии*
*Институт Образования Азербайджанской Республики*

# ФОРМИРОВАНИЕ ПЕДАГОГИЧЕСКОГО МЕНТАЛИТЕТА: АНАЛИЗ СУЩЕСТВУЮЩЕЙ ЛИТЕРАТУРЫ

***Nargiz Hüseynagha Gadirova***
*former doctorial student in the proqramme of a Ph.D*
*Institute of Education of the Republic of Azerbaijan*

# FORMATION OF PEDAGOGICAL MENTALITY: ANALYSIS OF EXISTING LITERATURE

**Xülasə:** Yeni pedaqoji təfəkkür şəraitində müəllim peşəkarlığı və səriştəliliyi, eyni zamanda müəllimin mentaliteti məsələsi öz aktuallığı ilə diqqət mərkəzinə gəlir.

Peşəkarlıq və səriştəlilik müəllimin fəaliyyətində mühüm yer tutmaqla yanaşı, müəllimin şəxsiyyəti, onun mentaliteti bu sahədə özünəməxsus böyük rol oynayır. Müəllimin nəzəri və metodik hazırlığa, pedaqoji ustalığa yiyələnməsi müəllimlik peşəsinin nüfuzunu artırır, müəllim əməyini maraqlı, məzmunlu və səmərəli edir. Müəllimlik peşəsinin əhəmiyyətinə, müəllim şəxsiyyətinə, müəllim mentalitetinə dair istər respublikamızda, istərsə də xarici ölkələrdə çoxsaylı fikirlər deyilmiş, cild-cild əsərlər, məqalələr, kitablar yazılmışdır. Məqalədə müəllim mentalitetinin formalaşdırılması baxımından mövcud ədəbiyyatın təhlili aparılır.

***Açar sözlər:*** *mentalitet, müəllimin mentaliteti, müəllimin mentalitetinin formalaşdırılması, ədəbiyyatın təhlili, müəllim şəxsiyyəti, təlim-tərbiyə işinin təşkili*

**Резюме:** В новом педагогическом мышлении профессионализм и компетентность учителя, а также его менталитет выходят на первый план со всей их актуальностью.

Профессионализм и компетентность занимают значимое место в деятельности педагога так же, как личность педагога и его менталитет играют своеобразную роль в этой сфере. Теоретическая и методическая подготовка и педагогическое мастерство учителя, повышают престиж педагогической профессии, делают работу учителя интересной, значимой и эффективной. Как в нашей республике, так и в зарубежных странах существует множество различных мыслей, многотомных произведений относительно значимости педагогической профессии, личности педагога и его менталитета. В статье проводится анализ формирования педагогического менталитета в существующей литературе.

***Ключевые слова:*** *менталитет, менталитет учителя, формирование менталитета учителя, анализ литературы, личность учителя, эффективная организация учебно-воспитательной работы*

**Summary:** In the new pedagogical thinking, the professionalism and competence of the teacher, as well as his mentality, come to the fore with all their relevance.

Professionalism and competence occupy a significant place in the activities of the teacher as well as the personality of the teacher and his mentality play a peculiar role in this area. Theoretical and methodical training and pedagogical skills of the teacher, increase the prestige of the teaching profession, make the work of the teacher interesting, meaningful and effective. Both in our republic and in foreign countries there are many different thoughts, multivolume works regarding the significance of the teaching profession, the personality of the teacher and his mentality. The article analyzes the formation of the pedagogical mentality in the existing literature.

***Keywords:*** *mentality, mentality of a teacher, formation of a teacher's mentality, analysis of literature, teacher's identity, effective organization of educational work*

Yeni pedaqoji təfəkkür şəraitində müəllim peşəkarlığı və səriştəliliyi, eyni zamanda müəllimin mentaliteti məsələsi öz aktuallığı ilə diqqət mərkəzinə gəlir. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda göstərilir: "Təhsilalanın savadlı və səriştəli şəxs kimi formalaşmasına müəllimin təsiri müəllimin akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən xeyli asılıdır. Müəllimin bu keyfiyyətləri ilə təhsilalanların nailiyyətləri arasında sıx korrelyasiya mövcuddur" (1).

Peşəkarlıq və səriştəlilik müəllimin fəaliyyətində mühüm yer tutmaqla yanaşı, müəllimin şəxsiyyəti, onun mentaliteti bu sahədə özünəməxsus böyük rol oynayır.

Müəllimin nəzəri və metodik hazırlığa, pedaqoji ustalığa yiyələnməsi müəllimlik peşəsinin nüfuzunu artırır, müəllim əməyini maraqlı, məzmunlu və səmərəli edir.

S.M. Qənizadə vaxtilə yazırdı: "Müəllimlik düntyanən ən nəcib peşələrindən biri, bəlkə də birincisidir. Bağ bağbansız keçinə bilmədiyi kimi bəşəriyyət də müəllimsiz keçinə bilməz. Hünərli usta dəmirdən səbir ilə misri qılınc yona bildiyi kimi yaxşı müəllim də kəstab millətdən xoşbəxt cəmiyyət hazırlayır" (2, s. 3).

Gəlin belə bir suala cavab tapmağa çalışaq: əlinə jurnal alıb sinif otağına girən, dərs deyən hər bir şəxsə müəllim demək olarmı? Əlbəttə, yox. V.A. Hötenin bu xüsusda belə müdrik fikri vardır: "Bizə kim dərs deyirsə, ona müəllim deyirik. Fəqət hər dərs deyən adam müəllimlik ləyaqətini doğrulda bilmir".

Həmin sözlərdə dərin həqiqət vardır.

Müəllimlik peşəsinin əhəmiyyətinə, müəllim şəxsiyyətinə, müəllim mentalitetinə dair istər respublikamızda, istərsə də xarici ölkələrdə çoxsaylı fikirlər deyilmiş, cild-cild əsərlər, məqalələr, kitablar yazılmışdır.

Ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram". Bu, müəllimlik peşəsinə, müəllim fəaliyyətinə, müəllim şəxsiyyətinə və müəllim mentalitetinə verilən çox mühüm qiymətdir.

Müəllim mentaliteti və müəllim şəxsiyyəti tədqiqatların obyekti olmuşdurmu? Bu suala cavab tapmağa çalışdıq.

Bir sıra tədqiqatlar nəzərdən keçirildi.

Prof. F.A. Rüstəmov qələmə aldığı "İlahi missiya" məqaləsini bölmələrə ayırıb. Həmin bölmələrin birini belə adlandırıb: "Müəllimini göstər, deyim ki, sən kimsən". Uğurlu adlandırmadır. Bu fikir "Dostunu göstər, sənin kim olduğunu deyim" atalar məsəli üzərində köklənib. Müəllif məqaləsində yazır: "Tədris prosesinin təkmilləşdirilməsi və daha səmərəli qurulması, əməkdaşlıq mühitinin yaradılması, sağlam rəqabətin formalaşdırılması dərin elmi-metodik biliyi, kreativ düşüncəsi, geniş erudisiyası, pedaqoji-psixoloji hazırlığı, yüksək mənəvi-əxlaqi keyfiyyətləri, akademik bacarığı, tədris təcrübəsi və peşəkarlıq səviyyəsi ilə fərqlənən müəllimlərdən birbaşa asılıdır. ABŞ-ın Şimali Karolina Universitetinin professoru, Nobel mükafatı laureatı Əziz Sancar Bakıda tələbələrlə görüşlərində demişdi: "Özünüzə yaxşı müəllim seçin" (3).

Professor daha sonra yazır: "On illərdir ki, azərbaycanlı tələbələrin də müəllim seçmək hüququ var. Amma bu seçimi reallaşdırmaq mexanizmi yoxdur. Yenə də buna mentalitet mane olur. Tələbələr vaxtı ilə tanınmış bir alimin (indi isə mühazirə oxumağa fiziki gücü çatmayan, yenilikləri süngü ilə qarşılayan birinin) fənnini seçməsə, o, işini itirə bilər. O, hamımızın müəllimi olub, onu necə təhsildən uzaqlaşdıra bilərik? Ona görə də ali məktəblərimizin mütləq əksəriyyətində müəllimi kafedra, seçmə fənləri isə dekanlıq seçir. Əgər biz Avropa ölkələrində olduğu kimi müəllim seçimində peşəkarlığı, pedaqoji-psixoloji və metodiki hazırlığı önə çəkməyi qarşımıza məqsəd qoymuşuqsa, onda, seçki sisteminin metodologiyasını dəyişməliyik. Təbii ki, bu, mürəkkəb, çətin və ağrılı prosesdir. İşin pioneri olmaq həmişə çətin olub" (3).

C. Cəfərovun "Müəllim hazırlığı: məqsədlərimiz, strateji hədəflərimiz" (4), T. Mehdixanlının "Müəllim ucalığı" (5), İ. Mustafayevinin "Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı üzrə prioritet inkişaf məsələləri: konseptual yanaşmalar" (6), E. Vidadioğlunun "Müəllim-şagird münasibətlərində nələr baş verir?" (7), S. Qara-

yevanın "Müəllim hazırlığı: müasir standartlar və günün tələbləri" (8), E. Güliyevin "Müəllim nüfuzunu bərpa etmək lazımdır" (9), Ş. Quliyevanın "Təlimdə müəllim-şagird münasibətləri haqqında" (10), R.Qəndilovun "Müəllimin təlim fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi" (11) D. Xaqaniqızının "Müəllim-şagird münasibətləri necə qurulmalıdır? (12 ) və b.-nın onlarla qəzet məqalələri müəllim mentaliteti və müəllim şəxsiyyətinin, müəllimin fəaliyyətinin özünəməxsusluğunu diqqət mərkəzinə gətirir.

Professorlar N.M. Kazımov və M.İ. İlyasov öz əsərlərini müəllimin pedaqoji ustalığına (13; 14) həsr etmişlər. M.İ. İlyasovun başqa bir əsəri müəllimin peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemlərinə (15) aiddir. V. Əliyevin "Müəllim hazırlığı prosesində peşə keyfiyyətlərinin formalaşdırılması yolları" (16), Ə.Ç. Sarıyevin "Müəllim və şagird münasibətləri haqqında" (17) kitabları da diqqətəlayiqdir.

Azərbaycan Respublikasının Təhsil İnstitutunda 1994-cü ildə ali və orta ixtisas təhsili şöbəsi yaradılıb. Uzun illər şöbəyə prof. A.N. Abbasov rəhbərlik edib. Burada ali və orta ixtisas təhsilinin mühüm problemləri araşdırılıb və eyni zamanda müəllim hazırlığı üzrə tədqiqatlar aparılıb. Şöbənin təşəbbüsü və yaxından iştirakı ilə institut beynəlxalq və respublika səviyyəli elmi konfranslar keçirir. Şöbə əməkdaşlarının tədqiqatlarının nəticələri nəşr olunub.

A.O. Mehrabov, A.N. Abbasov və b.-nın hazırladıqları "Müəllim hazırlığına yeni yanaşmalar" (18), M.C. Mahmudov, R.L. Hüseynzadə, M.İ. İlyasov və b.-nın "Müəllim hazırlığının aktual problemləri və modernləşdirilməsi" (19), A.O. Mehrabovun "Səriştəli müəllim hazırlığının problemləri" (20), A.O. Mehrabovun "Müasir təhsilin konseptual problemləri" (21), A.O. Mehrabov, A.N. Abbasov və M.C. Mahmudovun "Təhsilin modernləşdirilməssinin aktual problemlərri" ( 22), A.N. Abbasovun "Pedaqoji internatura" (23) və s. kitablarını nümunə göstərmək mümkündür.

İstər prof. N.M. Kazımovun, istər prof. M.İ. İlyasovun, istərsə də H. Əliyevin pedaqoji ustalığa aid dərsliklərində müəllimin mentalitetinə, müəllim şəxsiyyətinə aid son dərəcə qiymətli fikirlər vardır. Belə ki, M.İ. İlyasov "Müəllimin pedaqoji ustalığı" dərs vəsaitinin fəsillərindən bəzilərini diqqət mərkəzinə gətirək: 1. Müəllimin pedaqoji ustalığı və onun mahiyyəti. 2. Müəllim şəxsiyyəti və pedaqoji ustalıqda onun yeri. 3. Müəllim-şagird ünsiyyəti pedaqoji ustalığın vasitəsi kimi. 4. Dərsdə müəllimin pedaqoji ustalığı.

Fəsillərdən birinin (2. Müəllim şəxsiyyəti və pedaqoji ustalıqda onun yeri") yarışfəsilləri ilə tanış olaq: 2.1. Müəllimin əsas peşə keyfiyyətləri. 2.2. Müəllimin pedaqoji etikası. 3. Müəllimin nüfuzu (14, s. 48-78).

Nəzərdən keçirdiyimiz problem, müəllimin mentaliteti problemi baxımından ayrı-ayrı fəsillərə daxil olan aşağıdakı mövzular da zəngin material verir: 1. Müəllim peşəsi, müəllimin cəmiyyətdə rolu və vəzifələri. 2. Müəllimin nitqi pedaqoji ustalığın vasitəsi kimi. 3. Müəllimin xarici görünüşü və pedaqoji özünənəzarət. 4. Müəllim-şagird ünsiyyətinin formalaşmasının yolları və vasitələri.

Müəllimin nüfuza malik olması onun mentalitetinin formalaşmasında mühüm amildir. Müəllim öz davranış və rəftarı ilə pedaqoji kollektiv, həmkarları, şagirdləri və valideynlər arasında hörmət və nüfuz qazanmalıdır ki, onun mentaliteti kamil olsun. Prof. M.İ. İlyasov "Müəllimin pedaqoji ustalığı" dərs vəsaitində müəllimin şəxsiyyət nüfuzuna, vəzifə nüfuzuna və peşə nüfuzuna diqqəti yönəldir. Göstərir ki, müəllimin şəxsiyyət nüfuzu onun şəxsi keyfiyyətləri ilə əlaqədardır.

M.İ. İlyasovun qənaətincə, müəllimin vəzifə nüfuzu bilavasitə həmin vəzifənin mahiyyəti, daşıdığı funksiya ilə; peşə nüfuzunu isə onun savadından, nəzəri hazırlığından, öz ixtisasını yaxşı bilməsindən, müəllimlik peşəsinə sevgidən, təşkilatçılıq qabiliyyətindən, ünsiyyət münasibətlərindən, səriştəliliyindən, şagirdləri öz övladları kimi sevə bilməsindən və s. amillərdən asılıdır.

"Müəllimin pedaqoji ustalığı" dərs vəsaitində müəllimin əxlaqi simasına da münasibət bildirilir. Bu, müəllim mentalitetində başlıca məsələdir. M.İ. İlyasov müəllimin əxlaqi simasından danışarkən qeyd edir ki, "müəllim paklıq, təmizlik və ülvilik rəmzidir. O, yüksək əxlaqi keyfiyyətlərə malik olmalı, zəngin daxili aləmi, incə hərəkət və davranışı ilə şagirdlərə nümunə olmalıdır. Müəllim özünün hərəkət və davranışı, danışıq tərzi ilə başqa peşə və ixtisas sahiblərindən fərqlənir, daha doğrusu, seçilir.

Çünki təkcə uşaqlar-şagirdlər deyil, başqa adamlar da müəllimə bir əxlaqi etalon kimi baxırlar" (14 , s. 61).

İqtibasda müəllimin mentalitetinin adı çəkilməsə də, əslində söhbət məhz müəllim mentalitetindən, müəllim şəxsiyyətindən gedir.

Prof. A.O. Mehrabov "Səriştəli müəllim hazırlığının problemləri" (20) monoqrafiyasında müəllim mentaliteti ilə bilavasitə bağlı olan bir sıra məsələlərin üzərində dayanmışdır. Monoqrafiyada müəllim hazırlığının problemləri; müəllim-tələbə münasibətlərində pedaqoji qarşılıqlı təsirlərin xarakterik xüsusiyyətləri; səriştəli müəllim hazırlığında konseptual problemlər və pedaqoji konstruktivizm; müəllimin peşəkarlıq səviyyəsinin inkişafına təsir göstərən əsas amillər; müəllimin karyera inkişafında və innovativ fəaliyyətə hazırlığında pedaqoji monitorinqin imkanları və s.

Müəllimin pedaqoji fəaliyyətinə, müəllim şəxsiyyətinin formalaşdırılmasına aid respublikamızda bir sıra tədqiqatlar aparılmış, dissertasiyalar yazılmışdır. Bu fikir baxımından H.İ. Əliyevanın "Yeniyetmə şəxsiyyətinin formalaşmasında müəllim-şagird münasibətlərinin rolu" (24); X.Y. Ağayevanın "Müəllimin pedaqoji ustalığı təlimin səmərəliliyinin şərti kimi" (25); S.N. Nəsibovanın "Müəllimin pedaqoji ustalığı fənlərarası əlaqənin səmərəli təşkilinin şərti kimi" (pedaqoji təmayüllü orta ixtisas məktəblərinin materialları əsasında)" (26); S.A. Kərimovanın "İlkin pedaqoji kadr hazırlığında müəllim-tələbə münasibətlərinin səmərəli qurulması yolları" (27) adlı dissertasiyalarını qeyd edə bilərik.

"Müəllim hazırlığına yeni yanaşmalar" adlı kitabda (18) ümumi təhsil müəssisələrində yeni kurikulumların tətbiqi nəzərə alınmaqla ibtidaisinif müəllimi hazırlığı məsələləri; fənn metodikalarının təkmilləşdirilməsi ali məktəblərdə müəllim hazırlığının mühüm şərti kimi; müəllim kadrlarının hazırlanması təhsil sistemində aparılan islahatların strateji istiqamətlərdən biri kimi və s. bu kimi önəmli məsələlər araşdırılır; müəllim şəxsiyyəti, müəllimin şəxsi və peşə keyfiyyətlərinə, müəllim mentalitetinin formalaşdırılmasına diqqət yetirilir.

Azərbaycan Respublikasının Təhsil İnstitutunun 2018-ci il may ayının 18-də Bakı şəhərində təşkil etdiyi "Müəllim hazırlığı strateji hədəflərdən biri kimi" mövzusunda respublika elmi konfransı (28) da məqalədə nəzərdən keçirdiyimiz problem (müəllim mentalitetinin formalaşdırılması) baxımından zəngin material verir. Respublika konfrans aşağıdakı bölmələr üzrə fəaliyyət göstərmişdir: 1. Ümummilli lider Heydər Əliyev müəllim şəxsiyyəti və pedaqoji kadr hazırlığı haqqında. 2. Müəllim hazırlığı sistemində tərbiyə məsələləri. 3. Müəllim hazırlığı sistemində pedaqoji ustalıq, nəzəri və metodik hazırlıq məsələləri. 4. Müəllim hazırlığı sistemində təlim texnologiyalarının tətbiqi məsələləri. 5. Müəllim hazırlığı sistemində monitorinq və qiymətləndirmə, pedaqoji diaqnostika və pedaqoji ekspertiza məsələləri. 6. Müəllim hazırlığı sistemində təhsilin idarə olunması məsələləri. 7. Müəllim hazırlığı sistemində psixoloji xidmət məsələləri. 8. Müəllim hazırlığı sistemində inküliziv təhsilin təşkili məsələləri.

Konfransın plenar iclasında ARTİ-nin direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Ə.M. Abbasovun "Müəllim hazırlığına verilən müasir tələblər", ARTİ-nin elmi katibi, pedaqogika üzrə elmlər doktoru, professor A.N. Abbasovun "Ümummilli lider Heydər Əliyev müəllimin pedaqoji əməyi haqqında" məruzələri dinlənilmişdir.

Konfransın bölmə iclaslarında "Heydər Əliyev nəzəri irsində müəllimlik", "Müasir təlim prosesində müəllim - şagird münasibətləri", "Müəllim hazırlığı sistemində tələbələrdə mənəvi şüurun və nümunəvi davranışın formalaşdırılması məsələləri", "Müasir dövrdə müəllim hazırlığı probleminin bəzi məsələlər", "Abdulla Şaiq məktəb və müəllim şəxsiyyəti haqqında", "Müəllimin peşə keyfiyyətlərinin bəzi səciyyəvi xüsusiyyətləri haqqında", "Təhsilin keyfiyyətinin yüksəldilməsində müəllimin rolu", "Müəllimin xüsusi pedaqoji etika və mədəniyyətə malik olması" və s. bu kimi onlarla çıxışlar səslənmişdir.

Prof. A.N. Abbasov öz məruzəsində Ümummilli liderimiz Heydər Əliyevin belə bir fikrinə əsaslanmışdır: "Hər bir vicdanlı adam, Vətəninə, xalqına bağlı olan hər bir adam, qədirbilən adam müəllimini həmişə qəlbində saxlayır, onu daim hörmətlə yad edir. Müəllim adı şərəfli addır, müəllim adı yüksək addır. ...Müəllim adını yüksəklərə qaldırmalıyıq".

Bütün yuxarıda deyilənlər müəllim hazırlığının səmərəliliyinin artırılmasına, müəllim şəxsiyyətinin, müəllimin mentalitetinin müasir

günün tələbləri baxımından formalaşdırılmasına xüsusi diqqətin yetirilməzini zərurətə çevirir.

**Problemin aktuallığı.** Müəllim mentalitetinin formalaşdırılması yeni pedaqoji təfəkkür baxımından aktuallıq kəsb edir.

**Problemin yeniliyi.** Müəllim mentalitetinin formalaşdırılması baxımından mövcud ədəbiyyatın təhlili aparılır.

**Problemin praktik əhəmiyyəti.** Məqalə magistrantlara, doktorant və dissertantlara öz tədqiqatlarında kömək göstərəcəkdir.

**Ədəbiyyat:**

1. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası". Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 24 okytabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmişdir.
2. S.M. Qənizadə. Seçilmiş əsərləri. Bakı, 1965, s. 3
3. F.A. Rüstəmov. İlahi missiya. "Azərbaycan müəllimi" qəz., 2018, 16 noyabr
4. C. Cəfərov. Müəllim hazırlığı: məqsədlərimiz, strateji hədəflərimiz // "Azərbaycan məktəbi // 2016, № 5, s. 15-24
5. T. Mehdixanlı. Müəllim ucalığı. "Şərq" qəz., 2005, 15 sentyabr
6. İ. Mustafayev. Fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı üzrə prioritet inkişaf məsələləri: konseptual yanaşmalar. "Azərbaycan müəllimi" qəz., 2005, 30 sentyabr
7. E.Vidadioğlu. Müəllim-şagird münasibətlərində nələr baş verir? "Səs" qəz., 2016, 4 fevral
8. S.Qarayeva. Müəllim hazırlığı: müasir standartlar və günün tələbləri. "525-ci qəzet", 2012, 9 noyabr
9. E.Güliyev. Müəllim nüfuzunu bərpa etmək lazımdır. "İki sahil" qəz., 2005, 12 yanvar
10. Ş. Quliyeva. Təlimdə müəllim-şagird münasibətləri haqqında // Azərbaycan məktəbi, 2007, № 4
11. R. Qəndilov. Müəllimin təlim fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi. "Azərbaycan müəllimi" qəz., 2008, № 4 iyul
12. D. Xaqaniqızı. Müəllim-şagird münasibətləri necə qurulmalıdır? "Təhsil problemlər" qəz., 2009, 21-31 yanvar
12. N.M. Kazımov. Pedaqoji ustalığın problemləri: ali məktəblər üçün vəsaiti. Bakı: Çaşıoğlu, 2009, 294 s.
13. M.İ. İlyasov. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri: Monoqrafiya. Bakı: Elm və təhsil, 2018,208 s.
14. M.İ. İlyasov. Müəllimin pedaqoji ustalığı: dərs vəsaiti. Bakı: Elm və təhsil, 2013, 216 s.
15. H. Əliyev. Pedaqoji ustalığın əsasları: Dərs vəsaiti. Bakı: ADPU, 1968.
16. V. Əliyev. Müəllim hazırlığı prosesində peşə keyfiyyətlərinin formalaşdırılması yolları. Bakı, 2010.
17. Ə.Ç. Sarıyev. Müəllim və şagird münasibətləri haqqında. Bakı: Maarif, 1981.
18. A.O. Mehrabov, A.N. Abbaasov və b. Müəllim hazırlığına yeni yanaşmalar. Bakı: Mütərcim, 2012.
19. M.C. Mahmudov, R.L.Hüseynzadə, M.İ. İlyasov və b. Müəllim hazırlığının aktual problemləri və modernləşdirilməsi. Bakı: Mütərcim, 2015.
20. Mehrabov A.O. Səriştəli müəllim hazırlığının problemləri. Bakı, 2015.
21. A.O. Mehrabov. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010.
22. A.O. Mehrabov, A.N. Abbasov, M.C. Mahmudov. Təhsilin modernləşdirilməssinin aktual problemləri. Bakı: Mütərcim, 2013.
23. A.N. Abbasov. Pedaqoji internatura. Bakı: Mütərcim, 2015.
24. H.İ. Əliyeva. Yeniyetmə şəxsiyyətinin formalaşmasında müəllim-şagird münasibətlərinin rolu: Psixol.ü.fəls.dok. ...dis. Bakı, 2008.
25. X.Y. Ağayeva. Müəllimin pedaqoji ustalığı təlimin səmərəliliyinin şərti kimi: Ped. ü.fəls.dok. ...dis. Bakı, 2011.
26. S.N. Nəsibova. Müəllimin pedaqoji ustalığı fənlərarası əlaqənin səmərəli təşkilinin şərti kimi (pedaqoji təmayüllü orta ixtisas məktəblərinin materialları əsasında): Ped. ü.fəls.dok. ...dis. Bakı, 2012.
27. S.A. Kərimova. İlkin pedaqoji kadr hazırlığında müəllim-tələbə münasibətlərinin səmərəli qurulması yolları: Ped. ü.fəls.dok. ...dis. Bakı, 2014.
28. "Müəllim hazırlığı strateji hədəflərdən biri kimi" mövzusunda respublika elmi konfransının materialları. Bakı şəhəri, 28 My 2018-ci il. Bakı, 2018.

**E-mail**: nargizk@inbox.ru
**Rəyçi:** *ped.elm.dok., prof.* A.N. Abbasov
**Redaksiyaya daxil olub:** 20.12.2018